# MA KÜR® 100

## PARAFİN ƏSASLI, NƏM SAXLAYAN BETON KÜR MƏHSULU




### Məhsul haqqında
Parafin əsaslı olub, yeni tökülmüş beton və **STALTOP** və ya digər oxşar məhsulların üzərinə püskürtmə üsulu ilə çəkilən məhluldur. Məhlul çəkildiyi səthdə elə bir təbəqə yaradır ki, bu təbəqə sementin tam hidrotasiyasını təmin edərək betonu lazımi səviyyədə rütubətli saxlayır.
MA Kür 100 məhsulu çəkildiyi səthin betonu quruyarkən büzülmənin qarşısı alınır və buna görə də səthdə xırda çatlar əmələ gəlmir. Nəticədə hamar görüntülü səth yaranır.

### İstifadə sahələri
Bu məhsuldan:
• betonu sulu və nəm saxlamaqla yanaşı, daha səmərəli və qənaətcil şəkildə bütün beton səthlərində;
• hava limanlarında;
• avtoparklarda;
• yol və su kanallarının betonlarında istifadə olunur.

### Üstünlükləri
• beton səthinin suya olan tələbatını təmin edir;
• istifadəsi asandır;
• işçi xərclərini azaldır;
• məsaməsiz, daha düzgün və hamar səth əmələ gətirir;
• əmələ gələn təbəqə su keçirmir;
• sərtləşmə nəticəsində əmələ gələn, gözlə görünməyən xırda çatların qarşısını alır;
• günəş şüasını əks etdirir və yeni tökülmüş beton, **STALTOP** və ya digər oxşar məhsulda nəmliyi yüksək səviyyədə saxlayır.

### İstifadə qaydaları
***Səthin hazırlanması.*** MA Kür 100 məhsulunu istifadə etməzdən əvvəl səth hansı vəziyyətdə olmasından asılı olmayaraq mütləq təmizlənməlidir.

***Tətbiqi.*** MA Kür 100 məhsulunu yeni tökülmüş beton və **STALTOP** və ya digər oxşar məhsul üzərinə mümkün qədər eyni qalınlıqda püskürdün. Məhsuldan üfqü səthlərdə istifadə etdikdə betonun üzərindəki parlaqlıq itən kimi dərhal püskürdülmə işinə başlayın. Əgər məhsul qəlibdəki betona püskürdülürsə, onda beton qəlibdən çıxarılan kimi prosesə başlayın.

***Tövsiyələr.*** MA Kür 100 istifadə olunarkən mühitin temperaturu $+5^0C$-dən aşağı və $+30^0C$-dən yuxarıdırsa lazımi temperatur təmin olunmalıdır. İsti ($+30^0C$-dən yuxarı), yağışlı və küləkli havalarda istifadə olunmamalıdır. İstifadədən sonra bütün alətlər və ləvazimatlar su ilə təmizlənməlidir.

### Texniki göstəricilər

| | |
|---|---|
| Rəngi | ağ |
| Qatılığı | 1.0 kq/litr |
| Son nəticədə təbəqənin görüntüsü | şəffaf, hamar, sukeçirməyən təbəqə |
| Quruma müddəti | 2 saat 45 dəqiqə |
| Qablaşdırma | 1, 4, 10, 20 litirlik bidonlarda və 200 litrlik çəlləklərdə |

### Sərfiyyat
1 litr MA Kür 100 məhsulu 5,6 $m^2$ səthə kifayət edir.

### Saxlama müddəti və qaydası
Açılmamış qablarda quru şəraitdə 12 ay saxlanıla bilər.

### Xəbərdarlıqlar
• məhsulun tərkibində səthi aktiv maddələrin olduğunu nəzərə alaraq, dəriyə və ya gözə düşdükdə dərhal su ilə yuyun;
• istifadə qaydalarında qeyd edilməyən heç bir əlavə maddə qatmayın;
• yuxarıdakı göstəricilər $+23^0C\pm2^0C$ temperatur və 50%±5% rütubətli şəraitdə aparılan laboratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

### Zəmanət və texniki dəstək
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• “Mətanət A” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə “Mətanət A” şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün “Mətanət A” şirkətinə müraciət edin!